AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ

2018

# İLLİK HESABAT

# MÜNDƏRİCAT


- Akronimlər ..... 3
- Ön söz ..... 4
- Maliyyə Monitorinqi Xidməti haqqında ..... 5
- Xidmətin təşkilati strukturu ..... 6
- Qanunvericiliyin təkmilləşdirilməsi ..... 7
- Analitik fəaliyyət ..... 8
- Statistika ..... 9
- Daxili əməkdaşlıq ..... 12
- Beynəlxalq əməkdaşlıq ..... 13
- İnformasiya texnologiyaları ..... 14
- ƏLAVƏ 1: 2018-ci ildə PL/TMM sahəsində beynəlxalq standartların implementasiyası ilə əlaqədar qanunvericiliyə edilmiş bir sıra dəyişikliklər ..... 15
- ƏLAVƏ 2: Cədvəllərin siyahısı ..... 19
- ƏLAVƏ 3: Qrafiklərin siyahısı ..... 19

| | |
|---|---|
| **FATF** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| **GoAML** | Xüsusi analitik modul sistemi |
| **GUAM** | Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova – Demokratiya və İqtisadi İnkişaf üzrə Təşkilat |
| **Xidmət** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti |
| **İT** | İnformasiya texnologiyaları |
| **MONEYVAL** | Avropa Şurasının Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi |
| **PL/TMM** | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə |
| **PL/TM** | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi |

Arxada qoyduğumuz 2018-ci ili Azərbaycan Respublikasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) sisteminin inkişafı tarixində köklü islahatlar və mühüm nailiyyətlər ili kimi qeyd etsək, yanılmarıq.

Ötən il Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin müstəqil qurum olaraq yaradılması ilə əlamətdar olmuşdur. Xidmətin müstəqil qurum olaraq yaradılması və normativ hüquqi bazanın beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində atılan məqsədyönlü addımlar nəticəsində qanunvericiliyə bir sıra dəyişikliklər edilmişdir.

Məhz PL/TMM sahəsində aparılan ardıcıl islahatların nəticəsi olaraq, 2018-ci ildə dünyanın maliyyə monitorinqi orqanlarının beynəlxalq təşkilatı olan Eqmont Qrupu tərəfindən Xidmətin sözügedən təşkilata üzvlüyü bərpa edilmişdir. Bildiririk ki, Eqmont Qrupu kimi nüfuzlu ixtisaslaşmış təşkilatda təmsil olunmağımız Xidmətin potensialının gücləndirilməsi və məlumatların mübadiləsinin genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Keçən ilin nailiyyətlərindən bəhs edərkən, Avropa Şurasının MONEYVAL Komitəsinin 57-ci plenar iclasında Azərbaycan Respublikasının PL/TMM sahəsində IV raund qiymətləndirilməsi üzrə tərəqqi hesabatının qəbul edilməsini və bununla da ölkəmizin MONEYVAL-ın monitorinq rejimindən çıxmasını vurğulamaq lazımdır.

Beləliklə, 2018-ci ildə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizin beynəlxalq nüfuzunun daha yüksəldilməsinə nail olunmuşdur.

Maliyyə Monitorinqi Xidmətinin əməkdaşlarının peşəkar inkişafını təmin etmək məqsədi ilə onların ölkədə və xaricdə keçirilən tədbirlərdə iştirakı təmin edilmiş, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin iştirakçıları üçün məqsədli təlimlər keçirilmişdir.

Nəhayət qeyd edək ki, 2018-ci ildə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan müvafiq tədbirlərin icrası da davam etdirilmişdir.

KAMİL HEYDƏROV
İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti müstəqil qurum olaraq Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 25 may tarixli 95 nömrəli Fərmanı ilə yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə Xidmətin Nizamnaməsi və strukturu təsdiq edilmişdir.

Xidmətin fəaliyyətinin əsas məqsədi Azərbaycan Respublikasında PL/TM-in qarşısını almaq üçün qanunla müəyyənləşdirilmiş tələblərə riayət olunmasına nəzarət etmək, müvafiq sahədə vahid tənzimləməni həyata keçirmək, habelə monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, şəffaflığı və səmərəliliyi təmin etməkdir.

## XİDMƏTİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ**

- Vahid siyasətin formalaşmasında və bu siyasətin həyata keçirilməsində iştirak etmək
- Milli risk qiymətləndirilməsini həyata keçirmək, bu istiqamətdə dövlət orqanlarının və qurumlarının fəaliyyətini əlaqələndirmək
- Tənzimləməni və nəzarəti həyata keçirmək
- Müvafiq sahənin inkişafını təmin etmək
- Vahid informasiya sisteminin tətbiqini təmin etmək
- Normativ xarakterli aktlar qəbul etmək və müvafiq hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək
- Monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, onlardan daxil olan məlumatları toplamaq və təhlil etmək

# XİDMƏTİN TƏŞKİLATİ STRUKTURU

## Məlumatların təhlili departamenti

- Taktiki təhlil şöbəsi
- Strateji təhlil şöbəsi

## Məlumatların dəstəklənməsi departamenti

- Məlumatların emalı şöbəsi
- İnformasiya texnologiyaları şöbəsi

## Korporativ xidmətlər departamenti

- Katiblik şöbəsi
- Təminat və mühasibatlıq şöbəsi

## Daxili təhlükəsizlik departamenti

- Ümumi təhlükəsizlik şöbəsi
- İT təhlükəsizliyi şöbəsi
- İnsan resursları şöbəsi

## Hüquq departamenti

- Qanunvericilik və icraat şöbəsi
- Risklərin qiymətləndirilməsi və metodologiya şöbəsi

## Əməkdaşlıq departamenti

- Xarici və daxili əlaqələr şöbəsi
- Protokol və ictimai əlaqələr şöbəsi

## Nəzarət departamenti

- Lombardlara nəzarət şöbəsi
- Rieltorlara nəzarət şöbəsi

2018-ci ildə Azərbaycan Respublikasında PL/TMM sahəsində aparılmış islahatlar çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi əsas hədəflərdən biri olmuşdur. Xidmətin müstəqil qurum olaraq yaradılması və normativ hüquqi bazanın beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində atılan məqsədyönlü addımlar nəticəsində qanunvericiliyə bir sıra dəyişikliklər edilmişdir.

İlk növbədə, Xidmətin müstəqil qurum olaraq yaradılması ilə PL/TMM sahəsində nəzarət orqanlarının dairəsinin yenidən müəyyən edilməsi zərurəti ortaya çıxmışdır. Belə ki, 2018-ci il 12 iyun tarixli 1185-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmiş və Xidmətin nəzarət funksiyası digər nəzarət orqanlarının funksiyalarından fərqləndirilmişdir. Bununla da Xidmətə lombardlar və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərə münasibətdə nəzarət orqanı funksiyaları həvalə edilmişdir.

Xidmətin PL/TMM sahəsində normativ xarakterli aktların qəbul edilməsi səlahiyyətini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 216 nömrəli Fərmanı ilə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanına dəyişiklik edilmişdir. Bununla da Xidmət müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak edən qurum kimi monitorinq iştirakçıları və monitorinqdə iştirak edən şəxslərə münasibətdə tənzimetmə funksiyasını əldə etmişdir.

Bundan əlavə, 2018-ci il 12 iyul tarixli 1185-VQD nömrəli Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Xidmətə müvafiq dövlət orqanlarının (qurumlarının) informasiya resurslarından onlayn istifadə etmək hüququ verilmişdir.

Qeyd etmək lazımdır ki, 2018-ci il PL/TMM sahəsində milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mütərəqqi bir il kimi də yadda qalmışdır. Ötən ildə beynəlxalq standartların implementasiyası ilə əlaqədar qanunvericiliyə edilmiş əsas dəyişikliklər Əlavə 1-də göstərilmişdir.

Xidmətdə şübhəli əməliyyatlar barədə hesabatların təhlili "Məlumatların təhlili departamentində araşdırma və təhlil fəaliyyətinə dair Təlimat"a uyğun olaraq "GoAML" proqram təminatı vasitəsilə həyata keçirilir.

Xidmətin analitik fəaliyyəti taktiki və strateji təhlildən ibarətdir. Fiziki və hüquqi şəxslər və ya işi sübut edən hadisələr haqqında faktların dürüst ifadə edilməsi və işin formalaşdırılması üçün zəruri olan məlumatların yığımı prosesi kimi taktiki təhlil zamanı monitorinq subyektlərindən əldə olunmuş məlumatlarla digər taktiki məlumatlar tutuşdurulur.

Taktiki məlumatın əsas mənbəyini Xidmətin analitik informasiya sistemində yığılan məlumatlar, məlumata ümumi giriş imkanı olan mənbələr (şirkətlərin reyestri, auditor şirkətlərinin hesabatları, telefon bazaları, internet və s.), dövlət orqanlarının məlumat bazaları (vergi, ədliyyə, polis, miqrasiya, gömrük, daşınar və daşınmaz əmlakın qeydiyyatı və s.), ilkin məlumatı təqdim etmiş monitorinq subyektlərindən əldə olunmuş əlavə məlumatlar və digər ölkələrin maliyyə kəşfiyyat orqanları tərəfindən təqdim edilmiş məlumatlar təşkil edir.

Strateji təhlil zamanı Xidmətin gələcəkdə ümumi fəaliyyət istiqamətlərinin müəyyən edilməsinə kömək edən, onun fəaliyyətində istifadə oluna bilən biliklər, strateji məlumatlar bazası formalaşdırılır. Belə məlumatlar yeni problem və meyillərə, ümumi meyillərə və tipologiyalara, modellərə, coğrafi tədqiqatlara, şübhəlilik meyarlarına, davranış əlamətlərinə, cinayət fəaliyyətinin modellərinə, kriminal sxemlərə və digər analitik məhsullara aiddir. Strateji təhlilin əhatə dairəsinə hər hansı konkret qrupda kriminal sxemlərin müəyyən edilməsi, eləcə də cinayət fəaliyyətinin yeni modellərinin geniş konsepsiyalarının hazırlanması daxildir.

2018-ci il ərzində monitorinq subyektləri tərəfindən Xidmətə təqdim edilmiş əməliyyatlar barədə məlumatların sayı əvvəlki il ilə müqayisədə 17,7% artaraq 552297-yə çatmışdır (Diaqram 1).

**Diaqram 1**
**2016-2018-ci illər üzrə Xidmətə daxil olmuş əməliyyatlar barədə məlumatların sayı**




Müvafiq məlumatların 63,5%-i cari (20000 manat və daha artıq məbləğdə nağd şəkildə həyata keçirilən əməliyyatlar), 31,2%-i yüksək riskli, 0,3%-i şübhəli, 5%-i digər əməliyyatlar barədə məlumatların payına düşmüşdür (Cədvəl 1).

**Cədvəl 1**
**2018-ci ildə MMX-ya təqdim edilmiş məlumatların əməliyyatların kateqoriyasına görə bölgüsü**

| Əməliyyatların kateqoriyası | Əməliyyatların sayı |
|---|---|
| Cari əməliyyatlar | 350 621 |
| Yüksək riskli əməliyyatlar | 172 114 |
| Şübhəli əməliyyatlar | 1 686 |
| Digər əməliyyatlar | 27 876 |
| **CƏMİ** | **552 297** |

2016-cı ilə nəzərən 2017-ci ildə cari əməliyyatlar 6,4% azalmış, yüksək riskli əməliyyatlar 32%, şübhəli əməliyyatlar isə 5 dəfəyə yaxın artmışdır. 2017-ci ilə nəzərən 2018-ci ildə cari əməliyyatlar 26,5 %, yüksək riskli əməliyyatlar 38%, şübhəli əməliyyatlar isə 65% artmışdır (Diaqram 2).

**Diaqram 2**
**2016-2018-ci illər üzrə məlumat kateqoriyaları üzrə əməliyyatların sayı**




Hesabat dövründə Xidmətə təqdim edilmiş əməliyyatların əsas hissəsini məbləği 20001 - 100000 manat və 0 - 5000 manat intervallarında olan əməliyyatlar təşkil etmişdir (Cədvəl 3). Ümumi əməliyyatların 83%-i qeyd edilmiş iki intervalda olan əməliyyatların payına düşmüşdür. Yüksək riskli (93%) və şübhəli əməliyyatlar (56%) əsasən 5000 manata qədər olan intervala təsadüf etmişdir.

**Cədvəl 2**
**2018-ci il üzrə əməliyyatların məbləğ intervalları üzrə strukturu (% ilə)**

| İntervallar | Cari əməliyyatlar | Yüksək riskli əməliyyatlar | Şübhəli əməliyyatlar | Digər əməliyyatlar | Bütün əməliyyatlar |
|---|---|---|---|---|---|
| 0-5000 | 0,0 | 92,9 | 55,7 | 40,1 | 40,1 |
| 5001-10000 | 0,0 | 2,4 | 11,9 | 7,2 | 7,2 |
| 10001-20000 | 4,1 | 1,9 | 15,0 | 23,9 | 23,9 |
| 20001-100000 | 79,1 | 2,0 | 11,6 | 18,7 | 18,7 |
| 100001-1000000 | 15,9 | 0,7 | 4,1 | 8,8 | 8,8 |
| 1000000+ | 0,9 | 0,0 | 1,7 | 1,3 | 1,3 |
| **Cəmi** | **100,0** | **100,0** | **100,0** | **100,0** | **100,0** |

2018-ci ildə Xidmətə orta hesabla 1 iş günü ərzində 2200 əməliyyat barədə məlumat daxil olmuşdur. 2018-ci ildə monitorinq subyektləri tərəfindən təqdim edilmiş əməliyyatlar barədə məlumatların 48%-ni fiziki şəxslər, 52%-ni hüquqi şəxslər tərəfindən həyata keçirilmiş əməliyyatlar təşkil etmişdir (Diaqram 3).

**Diaqram 3**
**2016-2018-ci illər üzrə Xidmətə daxil olmuş əməliyyatlar barədə məlumatların müştərilər üzrə bölgüsü**




Xidmət tərəfindən şübhəli əməliyyatların təhlili məqsədilə cari ildə dövlət orqanları və xarici dövlətlərin maliyyə monitorinqi orqanları ilə məlumat mübadiləsi davam etdirilmişdir.

2018-ci ildə Xidmətə daxil olmuş məlumatların araşdırılması nəticəsində PL/TM şübhəsi olan hallar barədə hüquq mühafizə orqanlarına aidiyyəti üzrə məlumat verilmişdir.

Hesabat ili ərzində Xidmətin monitorinq subyektləri, hüquq mühafizə və məhkəmə orqanları, habelə digər dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı davam etdirilmişdir.

2018-ci ilin may-avqust ayları ərzində müvafiq qaydalara uyğun olaraq Xidmətə göndərilən hesabatların XSD və XML strukturlarının izahına dair banklara texniki təlim-seminarlar keçirmişdir.

2018-ci ilin may-dekabr ayları ərzində bankların rəhbərləri, PL/TM-ə qarşı mübarizə üzrə məsul şəxsləri, ön ofis əməkdaşları, daxili audit və hüquq struktur bölmələrinin əməkdaşları üçün Xidmətin əməkdaşları tərəfindən PL/TM-ə qarşı mübarizə mövzularında, o cümlədən müştəri və benefisiar mülkiyyətçilərin eyniləşdirilməsi, PL/TM sahəsində daxili nəzarət sistemlərinin qurulması mövzularında təlimlər keçirilmişdir.

Bundan əlavə, Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı çərçivəsində həyata keçirilən "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin gücləndirilməsi" layihəsinin icrası ilə əlaqədar 2018-ci il 27 sentyabr tarixində "Terrorçuluğun maliyyələşdirilməsi sahəsində konsepsiyalar və çətinliklər", 2 noyabr tarixində "Qeyri-qanuni əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə risklərin qiymətləndirilməsi metodologiyası və banklar üçün risk əsaslı yanaşmanın tətbiqi", 10 dekabr tarixində "Terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılması" mövzusunda təlimlər monitorinq iştirakçıları və monitorinqdə iştirak digər şəxslər üçün təşkil edilmişdir. Sözügedən layihənin icrası ilə əlaqədar keçirilmiş bütün müvafiq işçi görüşlərdə də Xidmətin iştirakı müntəzəm olaraq təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, 2018-ci il 15-16 noyabr tarixlərində Bakı şəhərində təşkil edilmiş Bankçılıq Forumunda da Xidmətin nümayəndəsi qurumun yeni müstəqil statusu və PL/TMM sistemində bankların roluna həsr olunmuş məruzə ilə çıxış etmişdir.

Beynəlxalq əməkdaşlıq Xidmətin fəaliyyətinin mühüm istiqamətlərindən biridir. Bu sahədə müvafiq tədbirlərin görülməsi həmçinin «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017–2019-cu illər üçün Milli Fəaliyyət Planı»nın "Beynəlxalq və ikitərəfli əməkdaşlığın gücləndirilməsi" adlı 3-cü bəndinin effektiv icrasına xidmət edir.

Ötən ildə Xidmətin maliyyə monitorinqi orqanlarının ixtisaslaşmış beynəlxalq təşkilatı olan Eqmont Qrupuna üzvlüyünün bərpa edilməsi məqsədi ilə qısa müddət ərzində qeyd edilən təşkilatla sistemli şəkildə işlər aparılmışdır. Nəticədə, 2018-ci il 23-28 sentyabr tarixlərində Avstraliya İttifaqının Sidney şəhərində keçirilmiş Eqmont Qrupunun 25-ci plenar iclasında müvafiq İşçi alt-qruplarında və Rəhbərlər Komitəsində aparılmış müzakirələrdən sonra Xidmətin Eqmont Qrupuna qəbul edilməsinə dair qərar 27 sentyabr tarixində yekdilliklə qəbul edilmişdir.

Xidmətin Eqmont Qrupunda üzvlüyünün bərpa edilməsi Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun daha da artırılması, müvafiq sahədə beynəlxalq əməkdaşlığın və məlumatların mübadiləsinin genişləndirilməsi, habelə potensialın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Xidmətin beynəlxalq əməkdaşlığının digər bir əhəmiyyətli istiqaməti Avropa Şurasının MONEYVAL Komitəsi ilə bağlı olmuşdur. Belə ki, hesabat ilinin 5 dekabr tarixində MONEYVAL Komitəsinin 57-ci plenar iclası çərçivəsində Azərbaycan Respublikasının PL/TMM sahəsində IV raund qiymətləndirilməsi üzrə hazırlanmış tərəqqi hesabatı dinlənilmiş və IV raund çərçivəsində FATF 40+9 Tövsiyəsinin, o cümlədən MONEYVAL-ın onlardan irəli gələn tövsiyələrinin ölkəmiz tərəfindən müvəffəqiyyətlə yerinə yetirilməsinə dair qərar qəbul edilmişdir.

Bundan əlavə, Xidmət İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (FATF), MONEYVAL və Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın – GUAM-ın tədbirlərində fəal iştirak etmişdir.

Xidmət həmçinin Avropa Şurası və Avropa İttifaqı tərəfindən 2018-ci ildə təşkil edilmiş "Korrupsiya vasitəsilə qeyri-qanuni sərvətlərin əldə olunması probleminin mümkün həlli yolları" üzrə seminarda (Kişinyov, Moldova), "Benefisiar sahibliyin şəffaflığı" mövzusunda konfransda (Tirana, Albaniya), "Nəzarət orqanları tərəfindən çirkli pulların yuyulmasına qarşı mübarizədə risk-əsaslı yanaşma" üzrə seminarda (İstanbul, Türkiyə) iştirakçı qismində töhfələr vermişdir.

2018-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə da əməkdaşlıq əlaqələri qurulmuş və monitorinq iştirakçıları üçün birgə tədbir təşkil edilmişdir. Bundan əlavə, hesabat ilinin dekabr ayında ABŞ-ın paytaxtı Vaşinqton şəhərində təşkil olunmuş "Kəşfiyyat-Təhlükəsizlik üzrə 12-ci Parlament Forumu"nda iştirak edilmişdir.

Xidmətin informasiya texnologiyaları (İT) infrastrukturunun təkmilləşdirilməsi və müvafiq elektron xidmətlərin göstərilməsi istiqamətində 2018-ci il ərzində bir sıra tədbirlər görülmüşdür.

Xidmətin İT infrastrukturunda mövcud maddi texniki bazanın bütövlükdə və ayrı-ayrılıqda qiymətləndirilməsi aparılmış və tələb olunan avadanlıq və proqram vasitələrinin əldə olunmasına dair təkliflər hazırlanmışdır. Həmçinin monitorinq subyektləri tərəfindən müvafiq məlumatların Xidmətə "GoAML" sistemi vasitəsilə elektron şəkildə ötürülməsi və qəbul edilməsi zamanı bu məlumatların tamlığının və düzgünlüyünün təmin edilməsi məqsədilə zəruri texniki tədbirlər görülmüşdür. İl ərzində monitorinq subyektlərindən daxil olan texniki məsələlər üzrə sorğular cavablandırılmış və müvafiq tövsiyələr verilmişdir.

Monitorinq subyektləri tərəfindən müvafiq məlumatların Xidmətə şifrələnmiş kanal üzərindən təqdim edilməsinin təşkili üçün nəzərdə tutulan xüsusi təhlükəsizlik sertifikatının əldə edilməsi Azərbaycan Respublikası Mərkəzi Bankının Sertifikasiya Mərkəzi tərəfindən aparılır. Ötən il ərzində Xidmət tərəfindən müvafiq monitorinq subyektlərinə yeni sertifikatlar verilmiş və vaxtı bitmiş sertifikatlar edilmiş sorğular əsasında yenilənmişdir. Ümumilikdə il ərzində 24 ədəd elektron sertifikat verilmişdir.

Xidmətin rəsmi internet səhifəsinin indikatorları və istifadəçilərinin sayının monitorinqini aparmaq üçün beynəlxalq praktikada geniş istifadə olunan "G Analytics" proqram təminatı quraşdırılmışdır. 2018-ci il üzrə internet səhifəsinin monitorinqinin nəticələri Cədvəl 3-də təqdim olunur.

**Cədvəl 3**
**2018-ci il üzrə www.fiu.az internet səhifəsinin indikatorları**

| Seansların sayı | İstifadəçilərin sayı | Səhifələrin baxılması sayı | Yeni istifadəçilər | Qayıtmış istifadəçilər |
|---|---|---|---|---|
| 40 772 | 21 893 | 104 669 | 21 272 | 4 860 |

# 2018-Cİ İLDƏ PL/TMM SAHƏSİNDƏ BEYNƏLXALQ STANDARTLARIN İMPLEMENTASİYASI İLƏ ƏLAQƏDAR QANUNVERİCİLİYƏ EDİLMİŞ BIR SIRA DƏYİŞİKLİKLƏR

| Normativ hüquqi akt | Dəyişikliyin məzmunu |
|---|---|
| "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 12 oktyabr tarixli 1273-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu | Terrorçuluğun maliyyələşdirilməsi anlayışı beynəlxalq standartlara uyğunlaşdırılmış, cinayətkarlarla əlaqəli olan şəxslərin maliyyə institutlarında mühüm iştirak payına sahib olması və ya belə payın benefisiar mülkiyyətçisi olması, habelə monitorinq iştirakçılarında idarəetmə funksiyalarını yerinə yetirməsi məhdudlaşdırılmış, nəzarət orqanlarının illik əsasla sahəvi risk qiymətləndirilməsini aparması və öz yoxlama planlarını müəyyən edilmiş riskə uyğun olaraq tərtib etməsi öhdəliyi müəyyən edilmiş, yüksək riskli zonalara münasibətdə monitorinq subyektləri tərəfindən həyata keçirilməli olan tədbirlər dəqiqləşdirilmiş, maliyyə monitorinqi orqanı tərəfindən pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi halları ilə yanaşı, predikativ cinayətlərə münasibətdə məlumatın təqdim edilməsi əsasları formalaşdırılmışdır. |
| Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 oktyabr tarixli 299 nömrəli Fərmanı | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə PL/TMM ilə əlaqəli cinayətlərin mərkəzləşmiş statistikasının elektron formada aparması, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətini təmin etməsi səlahiyyəti verilmişdir. |

# 2018-Cİ İLDƏ PL/TMM SAHƏSİNDƏ BEYNƏLXALQ STANDARTLARIN İMPLEMENTASİYASI İLƏ ƏLAQƏDAR QANUNVERİCİLİYƏ EDİLMİŞ BİR SIRA DƏYİŞİKLİKLƏR

| Normativ hüquqi akt | Dəyişikliyin məzmunu |
|---|---|
| "Rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın nağd şəkildə və milli valyutada ifadə olunmuş qiymətli kağızların Azərbaycan Respublikasından çıxarılması və Azərbaycan Respublikasına gətirilməsi zamanı bəyan edilməsi Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 434 nömrəli Qərarı | Milli valyuta üzrə transsərhəd nağd əməliyyatlar monitorinq rejiminə cəlb edilmişdir. |
| "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarı | PL/TMM sahəsində tədbirlərin həyata keçirilməsi üçün monitorinq subyektləri tərəfindən hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların əldə edilməsi üçün hüquqi əsas formalaşdırılmışdır. |
| "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2018-ci il 30 noyabr tarixli 1367-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu | İstintaq orqanlarına cinayət işi başlamadan, ilkin araşdırma mərhələsində maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi növündə istintaq hərəkətlərinin həyata keçirilməsi hüququ verilmişdir. Bu dəyişiklik PL/TM hallarının araşdırılması zamanı hüquq mühafizə orqanlarının maliyyə məlumatlarına cinayət işi açılmadan əlçatanlığını təmin etmişdir. |

# 2018-Cİ İLDƏ PL/TMM SAHƏSİNDƏ BEYNƏLXALQ STANDARTLARIN İMPLEMENTASİYASI İLƏ ƏLAQƏDAR QANUNVERİCİLİYƏ EDİLMİŞ BIR SIRA DƏYİŞİKLİKLƏR

| Normativ hüquqi akt | Dəyişikliyin məzmunu |
| --- | --- |
| "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 358 nömrəli Fərmanı | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikası Vergilər Nazirliyinə apardıqları ibtidai istintaqı zamanı pulların leqallaşdırılması cinayətin əlamətləri aşkar etdikdə bu tipli cinayətlərə dair istintaqın aparılması səlahiyyəti verilmişdir. Qeyd edilən dövlət orqanlarına müvafiq səlahiyyətin verilməsi pulların leqallaşdırılması və predikativ cinayətlərin istintaqı zamanı maliyyə araşdırmalarının aparılması imkanlarını genişləndirmişdir. |
| "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2018-ci il 30 noyabr tarixli 1363-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu | Monitorinqdə iştirak edən digər şəxslərə (vəkillər və auditorlar istisna olmaqla) nəzarət orqanları tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda inzibati-iqtisad məhkəməsinin iştirakı olmadan birbaşa inzibati sanksiya tətbiq etmək səlahiyyəti verilmişdir. |
| "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 360 nömrəli Fərmanı | Monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə birbaşa sanksiya tətbiq etmək səlahiyyəti olan nəzarət orqanlarının dairəsi müəyyən edilmişdir. |

# 2018-Cİ İLDƏ PL/TMM SAHƏSİNDƏ BEYNƏLXALQ STANDARTLARIN İMPLEMENTASİYASI İLƏ ƏLAQƏDAR QANUNVERİCİLİYƏ EDİLMİŞ BİR SIRA DƏYİŞİKLİKLƏR

| Normativ hüquqi akt | Dəyişikliyin məzmunu |
|---|---|
| Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 361 nömrəli Fərmanı | Monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə sanksiya tətbiqi zamanı protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin dairəsi müəyyən edilmişdir. |
| "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 30 noyabr tarixli 1364-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu | PL/TMM sahəsində yoxlamalara tətbiq edilən məhdudiyyət aradan qaldırılmışdır. |
| "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 30 noyabr tarixli 1365-VQD nömrəli Azərbaycan Respublikası Qanunu | Xidmətə PL/TMM sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək səlahiyyəti verilmişdir. |
| "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr 362 nömrəli Fərmanı | |

# ƏLAVƏ 2:

## CƏDVƏLLƏRİN SİYAHISI

**Cədvəl 1**. 2018-ci ildə Xidmətə təqdim edilmiş məlumatların əməliyyatların kateqoriyasına görə bölgüsü........ 9

**Cədvəl 2**. 2018-ci il üzrə əməliyyatların məbləğ intervalları üzrə strukturu (% ilə)........ 10

**Cədvəl 3**. 2018 il üzrə www.fiu.az internet səhifəsinin indikatorları........ 14

# ƏLAVƏ 3:

## DİAQRAMLARIN SİYAHISI

**Diaqram 1**. 2016-2018-ci illər üzrə Xidmətə daxil olmuş əməliyyatlar barədə məlumatların sayı........ 9

**Diaqram 2**. 2016-2018-ci illər üzrə məlumat kateqoriyaları üzrə əməliyyatların sayı........ 10

**Diaqram 3**. 2016-2018-ci illər üzrə Xidmətə daxil olmuş əməliyyatlar barədə məlumatların müştərilər üzrə bölgüsü........ 11

